# Zəfər tarixinin xronikası



## 5 noyabr 2021-ci il

**Həmin gün:**

Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində deyib: “Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik”.;

–Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev KİV-ə açıqlamasında bildirib: “Sərhədsiz reportyorlar” təşkilatının 80 nəfər yerli və xarici jurnalistin Xankəndidən təhlükəsiz çıxa bilməməsinə dair açıqlaması ilə əlaqədar bildiririk ki, Laçın dəhlizi vasitəsilə Xankəndi ilə Ermənistan arasında yolu bağlayan məhz Ermənistandır. Dünən Ermənistan tərəfi açıqlama verərək yolu bağladığını bildirmişdi”.;

–Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında bildirilib: “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında vəziyyəti yanlış təqdim etmək məqsədilə Ermənistanın dövlət təbliğatı ənənəvi olaraq saxta xəbərlərin hazırlanması və yayılması ilə fəal şəkildə məşğul olur. Bu qarayaxma kampaniyasının əsas məqsədi beynəlxalq ictimaiyyəti aldatmaq və beynəlxalq hüququn norma və prinsiplərinə, habelə BMT-nin Təhlükəsizlik Şurası daxil olmaqla, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq çoxsaylı qərarlara əsaslanan Azərbaycanın ədalətli mövqeyinə xələl gətirməkdən ibarətdir”.

### Cəbhədə son vəziyyət

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları istiqamətindən Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən fasilələrlə atəşə tutulub.

Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulub.

Düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dağıdılıb.

### Ermənistanın mülki cinayətlərinin statistikası

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 5-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 92 nəfər həlak olub, 404 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2971 ev, 100 çoxmənzilli yaşayış binası və 502 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

### Beynəlxalq KİV Vətən müharibəsindən yazır

Özbəkistan “daryo.uz” portalı dövlət başçısı İlham Əliyevin İtaliyanın “La Repubblica” qəzetinə müsahibəsində 30 ilə yaxın davam edən danışıqların heç bir nəticə verməməsi, Ermənistanın son təxribatları, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində aparılan müharibə, torpaqlarımızın böyük bir hissəsinin işğalçılardan azad edilməsi və digər məsələlər haqqında məlumat verib.

* * *

Moldovanın “Tribuna”, NOİ.MD, AVA.MD, İPN.MD və “Timbul” informasiya portalları Azərbaycanın bu ölkədəki səfiri Qüdsi Osmanovun Ermənistanın işğal etdiyi ərazilərimizdə mədəni-dini abidələrin dağıdılmasına dair rumın və rus dillərində məqaləsini yayıblar.

“Azərbaycanın Qarabağdakı məscidlərində 30 ildir donuzlar saxlanılır” sərlövhəli məqalədə səfir işğal altındakı ərazilərimizdə olan 67 məsciddən 63-nün tam dağıdıldığını, 4-nün isə qismən məhv edildiyini vurğulayıb.

Q.Osmanov qeyd edib ki, yalnız beynəlxalq təşkilatların təzyiqi nəticəsində Ağdamdakı Cümə, Aşağı və Yuxarı Gövhərağa, Şuşadakı Saatlı məscidlərinin divarları qorunub saxlanılıb. Buna baxmayaraq, ermənilərin ədəbsizliyinin və azərbaycanlılara nifrətinin təcəssümü olaraq onların içərisində donuz və mal-qara saxlanılıb.

* * *

Meksikanın nüfuzlu “El Economista” və “Pulse News Mexico” qəzetlərində Ermənistan-Azərbaycan münaqişəsi və Ermənistanın sentyabrın 27-dən etibarən törətdiyi müharibə cinayətləri barədə məqalə dərc edilib.

Ölkəmizin Meksikadakı səfiri Məmməd Talıbovun bu mətbu orqanlara müsahibələri əsasında hazırlanan yazılarda Dağlıq Qarabağın, bəzi KİV-lərdə qeyd olunduğu kimi, mübahisəli ərazi deyil, Azərbaycanın beynəlxalq qaydada tanınmış və ətraf 7 rayonla birlikdə 30 ilə yaxındır Ermənistan tərəfindən işğal edilmiş ərazisi olduğu diqqətə çatdırılıb. Bildirilib ki, bu ərazilərdən 1 milyona yaxın azərbaycanlı qovularaq məcburi köçkünə çevrilib.

* * *

Misirin “Almasralyoum”, “Alwasela”, “Aldiplomasy”, “Nİle1” və “Garbnews” informasiya portalları Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev özünün “Twitter” hesabında şanlı ordumuzun daha 7 kəndi işğaldan azad etməsi ilə bağlı paylaşımına dair informasiyalar yayıb.

***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 5 noyabr.- S.10.